

Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə DÖVLƏT KOMİSSİYASI

# GƏLƏCƏYİMİZİ BİRLİKDƏ DÜŞÜNƏK NARKOMANİYAYA YOX DEYƏK!!!



## NARKOMANİYA TƏNHALIQ, AĞRI, FİZİKİ VƏ RUHİ TƏNƏZZÜL DEMƏKDİR


Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu

**Tel:** (+994 12) 498 25 28; (+994 12) 498 58 82; (+994 12) 493 12 37
**E-mail:** info@nmdk.gov.az
**Web:** www.nmdk.gov.az


### Narkomaniya nədir?

**Narkomaniya** (yunan dilindən "narke"- keyimə və mania - dəlilik, ruh yüksəkliyi) – tibbdə bədən funksiyalarının ciddi pozulmasına gətirən, narkotiklərə patoloji asılılıq ilə xarakterizə olunan xəstəlik.
**Narkomaniya** - bihuş vəziyyətə düşmək və ya bədən ağrılarını götürmək məqsədi ilə narkotik vasitələrin müxtəlif yollarla (udma, nəfəs yolları, venadaxili) qəbul etmək istəyidir.

Narkomaniyadan asılılığın iki növü var:
**Psixoloji asılılıq** - psixi narahatlığı aradan qaldırmaq üçün narkotik maddələrdən istifadəyə olan patoloji asılılıq, istifadədən sonra narahatlığın keçməsi.

**Fiziki asılılıq** - narkotik maddələrin bədənə daxil edilməsi dayandırıldıqda bədəndəki funksiyaların kəskin şəkildə pozulması ilə xarakterizə olunan vəziyyət.

### Narkomaniya-4 mərhələdə inkişaf edir:
### 1-ci mərhələ: ("ilk təcrübələr")

Bu mərhələ üçün xarakterikdir:

- **Təbii maraq, "yalnız dadına baxmaq" arzusu;**
- **"Həzz" hissinin yeni növləri üçün fəal axtarış;**
- **"Yox" deməyi bacarmamaq;**
- **Narkotik haqqında müxtəlif miflərin təsirinə düşmək;**
- **"Zəif" və ya "qorxaq" kimi görünmək qorxusu;**
- **Şüursuz (və ya şüurlu) həyatın çətinliklərindən xilas olunmaq arzusu;**
- **Özünə qarşı diqqətsizlik, mənasız həyat tərzi;**
- **Həyatı maraqlı və dolğun etmək arzusu;**
- **Narkotikin necə məhvedici təsiri olduğu barədə təsəvvürün olmaması;**

"həzz" - bədəndə duyğuların qeyri-adi yüksək zirvəsidir. İlk dozada beyinin neyrokimyəvi balansının kəskin pozulmasına səbəb olur.
İlk təcrübədən sonra iki yolu var:

1. İstifadəni tamamilə dayandırmaq.
2. Qəbula davam etmək hansı ki, istər-istəməz asılılığın növbəti mərhələsinə gətirib çıxarır.

### 2-ci mərhələ: ("asılılıq yaranır")

Bu mərhələ üçün xaraxterikdir;

- **Şüurlu şəkildə narkotikdən "həzz" almaq arzusu;**
- **İstifadənin planlaşdırılması;**
- **Ağlabatan bəhanələr tapıb istifadə etmək;**
- **"Lazımi" kompaniya axtarışı;**
- **Narkotikin əyləncə və istirahət üçün zəruri atributa çevrilməsi;**

**Asılılıq** - öyrəşmə xəstəliyidir. Bu mərhələdə bədən bir dozaya öyrəşir və daha çoxunu tələb edir.
**Doza qanunu;** əgər insan narkotik qəbuluna davam edirsə, o artıq qarışıq maddələrə və zəifdən daha güclü narkotik maddələrə keçir. Bununla da asılılığın növbəti mərhələsinə keçir.

### 3-cü mərhələ: ("İnkar" dövrü)

Bu mərhələ üçün xaraxterikdir;

- **Sağlamlıq problemləri (narahatlıq, yoluxucu xəstəliklər);**
- **Davranış nəzarətinin itirilməsi (travma, zorakılıq, cinayət);**
- **Ailədə qalmaqallar;**
- **Dərslərdə, işdə problemlər;**
- **Maliyyə çətinlikləri (borclar, evdən əşyaların satışı, pul üçün daimi axtarış);**
- **Dostlar ilə münaqişələr;**
- **Qanunla ziddiyyətlər;**

Bu mərhələdə tam fiziki asılılıq yaranır. Narkotik istənilən zövqü gətirmir və artıq bədənin normal işləməsi üçün istifadə olunur. İnsan hələ narkotik istifadəsi ilə öz problemlərini şərik etmir. Yaranmış problemlər artıq bəhanə kimi istifadə olunur. İstifadə yeni problemlərə gətirib çıxarır. Bu mərhələdə istifadəni dayandırmaq qeyri-mümkündür, mütəxəssis köməyi mütləqdir.
İstifadənin davamında asılılıq mütləq növbəti mərhələyə keçid alır.

### 4-cü mərhələ: ("son")

Bu mərhələ üçün xaraxterikdir;

- **İstifadə xatirinə qəbul etmək:**
- **Narkotik maddə qəbulu davamlı bir ehtiyaca çevrilir;**
- **Doza təsiri altında ən ekstremal davranışlar;**
- **Mənəvi dəyərlərin məhvi;**
- **Süstlük və istəksizlik, yaşamağa həvəsin qalmaması;**
- **İntihar cəhdləri;**
- **Ciddi sağlamlıq problemləri, xroniki xəstəliklərin yaranması;**

Ailə, dostlar və cəmiyyətlə əlaqələrin kəsilməsi,
Bu mərhələdə dərin fiziki dəyişikliklər müşahidə olunur, bədən narkotikdən tamamilə asılı vəziyyətdə olur,
Maddə istifadəsi zamanı beyin müstəqil düşünə bilmir, adekvat düşünməyi üçün mütləq növbəti doza lazım olur.

**Bu mərhələdə narkoman narkotik vasitənin qəbulunu dayandırmırsa - o ÖLÜR.**